Azərbaycan Respublikası Təhsil Nazirliyinin Azərbaycan Milli Kulinariya Assosiasiyası ilə birlikdə təşkil etdiyi müsabiqə Dünya Azərbaycanlılarının Həmrəylik Gününə həsr olunub.

Ali, orta ixtisas və ilk peşə-ixtisas təhsili müəssisələri komandalarının iştirak etdiyi müsabiqə kulinariya üzrə təhsil alan gənclərin peşə vərdişlərinin inkişafı və istedadlı gənc kulinarların beynəlxalq müsabiqələrə hazırlanması məqsədlərinə xidmət edir.

Tədbirdə Azərbaycan Milli Kulinariya Assosiasiyasının prezidenti Tahir Əmiraslanov, Təhsil Nazirliyi Texniki peşə təhsili şöbəsinin müdiri Namiq Məmmədov, müsabiqəyə qatılmış komandaların təmsil etdikləri təhsil müəssisələrinin nümayəndələri, müəllimlər, tələbələr və şagirdlər iştirak ediblər.

Tədbirin sonunda müsabiqə qaliblərinə diplom və hədiyyələr təqdim olunub.